# Azərbaycan xalçaları bu dəfə ABŞ-də sərgilənib

**Zərif toxunuşu, gözəlliyi ilə dünyanı heyran qoyan Azərbaycan xalçaları bu dəfə Amerika Birləşmiş Ştatlarında sərgilənib. Sərgi Vaşinqtonda "Azərxalça" ASC və ABŞ - Azərbaycan Ticarət Palatası (USACC) arasında əldə olunmuş razılığa əsasən təşkil olunub. Sərgidə nümayiş etdirilmək üçün ABŞ-yə Qarabağ, Gəncə-Qazax, Quba-Şirvan və Təbriz xalçaçılıq məktəblərinə aid 76 ədəd müxtəlif ölçülü yun və ipək xalça göndərilib.**



Bu barədə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətindən (ASC) məlumat verilib. Bildirilib ki, tədbir USACC-nin ofisinin qalereyasında, "Azərxalça"nın İdarə Heyətinin sədri Emin Məmmədov və palatanın icraçı direktoru Natiq Baxışovun iştirakı ilə keçirilib.

Məlumatda qeyd olunub ki, sərgi iştirakçılarına, o cümlədən xalça satın almaq istəyənlərə yalnız ənənəvi üslubda və rənglərdə deyil, modern dizaynlı, müasir interyerə daha uyğun, çağdaş zövqə xitab edən pastel rəngli xalçalar da təqdim edilib.

Bəhs olunan "Azərbaycan xalçaları" adlı sərgini nəzərə alaraq, kənd qadınlarının səlahiyyətlərinin artırılması məqsədilə ABŞ-nin paytaxtı Vaşinqtonda elan olunan "Qadın tarixi ayı" çərçivəsində şəhər meri Mayor Bouzer 27-31 mart tarixlərini "Azərbaycan kənd qadınlarının gücləndirilməsi və səlahiyyətlərin artırılması həftəsi" elan edib. ASC-nin məlumatına görə, bunu təsdiq edən sənəd rəsmi şəkildə "Azərxalça"nın nümayəndələrinə təqdim edilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-29 mart.- S.10.